# Göygölə gələn turistlərin sayı ildən-ilə artır

Son illər aparılan abadlıq və yenidənqurma işləri Göygöl rayonunun simasını başdan-başa dəyişib. Geniş və abad küçələr, park və xiyabanlar, istifadəyə verilən əyləncə mərkəzləri yerli əhalinin, eləcə də turistlərin mənalı istirahəti üçün geniş imkanlar açıb. Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Şərqiyyə Hümbətova jurnalistlərə açıqlamasında deyib ki, Göygölün turizm imkanları xarici qonaqların diqqətindən qaçmır. Rayona gələn turistlərin sayı ildən-ilə artır. Bunun da başlıca səbəbi onlar üçün yaradılan şəraitdir. Rayonun yerləşdiyi coğrafi mühit və təbii şərait turizm üçün çox əlverişli olduğundan burada dincəlmək istəyənlərin sayı artmaqdadır. Hazırda rayonda "Lotos" hoteli, "Cənnət məkan", "Yelenendorf", "Koroğlu", "Ağrı dağı", Bərəkət" və "Quşqara" istirahət mərkəzləri fəaliyyət göstərir. Doğrudur, bunlar rayona gələn turistlərin ehtiyacını tam ödəmir. Lakin ilbəil rayonda turizmin inkişafı daha qabarıq nəzərə çarpır. Şöbə müdiri onu da əlavə edib ki, keçən il rayonda 26 min turist dincəlib. Turizm infrastrukturunda aparılan tədbirlər nəticəsində bu il onların 30 minədək artacağı gözlənilir. Hazırda rayonda 5 istiqamətdə - Aşağı Hacıkənd-Göygöl, Topalhəsənli-Zurnabad-Şəhriyar, Köçkü-Üçbulaq, Quşqara-Balçılı və Göygöl şəhəri üzrə turist marşrutları fəaliyyət göstərir. Bu marşrutlar üzərində 31 yerli əhəmiyyətli abidə var. Onlardan XII əsrə aid Ağ körpü, Zurnabad kəndində Qala abidəsi, Quşqarada Türbə, Çaykənddə müqəddəs Məryəm kilsəsi, Gəncə çayının rayon ərazisindən keçən hissəsində iki və üçtağlı körpülər, Dozular kəndində Kürəkçay körpüsü, şəhərdə Lüteran kilsəsi, Anahid məbədi turistlərin böyük maraq göstərdikləri tarixi abidələrdir. Ümumiyyətlə, Göygöl rayonunda turizm infrastrukturunun inkişafı istiqamətində uğurlu addımlar atılır. Təbiəti füsunkar, havası təmiz, buz bulaqları ilə insanlara şəfa verən bu rayonun mətbəxi də zəngindir. Turizm məkanlarında dincələnlərə milli mətbəximizin nümunələri təqdim olunmaqla yanaşı, maraqlı əyləncələr də təşkil edilir. Tanınmış incəsənət ustaları istirahət ocaqlarına səfər etməklə turistlərə xoş anlar yaşadırlar. Bir sözlə, hər il rayon iqtisadiyyatına xeyir gətirən turizmin daha da inkişaf etdirilməsi üçün Göygöldə uğurlu addımlar atılır.